**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# RƏQABƏT QABİLİYYƏTLİ SAHİBKARLIQ FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİNDƏ VERGİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Mehriban Mirqasım qızı İsgəndərova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Məhərrəm Cəlal oğlu Hüseynov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Ramiz Bulut oğlu Məhərrəmov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Tubu Məmmədrza qızı Rəhimova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________
AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________
iqtisad elmləri doktoru, professor
**Elşən Əli oğlu İbrahimov**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünyada baş verən iqtisadi transformasiyalar və formalaşan qlobal çağırışlar mövcud iqtisadi mexanizmlərin, dövlətlərin iqtisadi siyasətlərinin və praktiki alətlərinin maksimum təkmilləşdirilməsini, ya da yenilənməsini şərtləndirir. İqtisadi proseslərin səmərəlilik problemlərinin həll edilməsi, xərclərin optimallaşdırılması, iqtisadi subyektlərin maliyyə təminatı mexanizmlərinin və rentabellik problemlərinin ön plana çıxması diqqət çəkir. Bu sırada iqtisadiyyatın rəqabətqabiliyyətlilik prinsipləri və iqtisadi fəaliyyət mühitində sağlam rəqabət mühitinin yaradılması vacibdir. Digər tərəfdən, sahibkarlıq fəaliyyətinin daha yüksək səviyyədə təmin olunmasında müxtəlif mexanizmlərin və amillərin müstəsna əhəmiyyəti vardır. Xüsusilə, müasir dövrdə rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin reallaşdırılmasında vergi sisteminin təsiri və rolu böyükdür.

Son illərdə Azərbaycan müstəqil dövlət kimi özünün iqtisadi inkişaf modelini təkmilləşdirməkdə və yeni dövrün şərtlərinə uyğun olaraq tənzimləməkdə kompleks və sistemli tədbirlər görməkdədir. Neftqaz sənayesinin üstün cəhətlərindən istifadə etməklə, beynəlxalq əmək bölgüsü sistemində bu sahədə ixtisaslaşan Azərbaycan özünün digər iqtisadiyyat sahələrinin formalaşdırılmasında, islahatların aparılmasında və iqtisadiyyatın strukturunun şaxələndirilməsində sistemli dövlət siyasəti sərgiləyir. Yəni, qeyri-neftqaz təmayüllü iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi yüksək prioritetlik səviyyəsinə qaldırılmışdır. Bu proseslərdə sahibkarlıq fəaliyyətinin gücləndirilməsi, səmərəli təşkil olunması və fəaliyyət mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi məsələlərində vergilərin rolu kifayət qədər böyükdür.

Vergilərin stimullaşdırılması və vergi sisteminin optimal olaraq təkmilləşdirilməsi rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə əlavə imkanlar yaradır. Digər tərəfdən, 2023-cü ildə mütərəqqi Rəqabət Məcəlləsinin qəbul edilməsi və təsdiq olunması ölkəmizdə iqtisadi proseslərin daha şəffaf şəkildə və

sağlam mühit şəraitində aparılmasına əlavə stimullar verir[1]. Biz də bu fikirdəyik ki, Rəqabət Məcəlləsinin qəbul edilməsi ölkə iqtisadiyyatının müxtəlif sahələrində sahibkarlığın sağlam mühit şəraitində inkişafına əlavə potensial yaratmaqdadır. Belə bir şəraitdə sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi və onun rəqabət qabiliyyətinin artırılması üçün yeni imkanlar ortaya çıxır.

AR-sı Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i təsdiq olunmuşdur[2]. Bu prioritetlər içərisində qeyri-neftqaz sənayesinin şaxələndirilməsi, yaşıl iqtisadiyyatın yaradılması və bununla bağlı proseslərin intensivləşdirilməsi, sahibkarlıq fəaliyyətinin rolunun gücləndirilməsi və s. bu kimi məsələlər xüsusi diqqət mərkəzində saxlanılmışdır. Bunlarla yanaşı, AR-sı Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuş "AR-nın 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf Strategiyanın reallaşdırılması intensiv olaraq gedir[3].

Burada prioritet vəzifələr sırasında bir çox məsələlər, o cümlədən sahibkarlıq fəaliyyətinin iqtisadiyyatın bütün sahələrində gücləndirilməsi, qeyri-neftqaz sektorunun imkanlarının maksimum nəzərə alınması yer almışdır. Digər tərəfdən, postkonflikt ərazilərin dirçəldilməsində 10 il müddətinə verilmiş geniş vergi güzəştlərinin hesabına bu ərazilərdə iqtisadi fəallığın gücləndirilməsi, infrastrukturun yüksək texnologiyalar əsasında formalaşdırılması, istehsal şəbəkəsinin yaradılması, xidmət və ənənəvi iqtisadiyyat sahələrini özündə ehtiva edən iqtisadi sektorların inkişaf etdirilməsi məsələləri maksimum aktuallıq təşkil edir.

Ölkəmizdə rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin təmin olunmasında kiçik və orta sahibkarlıq subyektlərinin rolu

---

[1]Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi. Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

[2]Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

[3]Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası. AR Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir.

artmaqdadır. Bu istiqamətdə dövlət siyasəti təkmilləşdirilmiş və mərkəzi idarəetmə strukturu – Kiçik və Orta Biznesin İnkişafı Agentliyi fəaliyyət göstərir[4]. Müxtəlif təsirli tədbirlər, o cümlədən qrant müsabiqələri keçirilir, kiçik və orta sahibkarlıq subyektlərinin fəallığının artırılması istiqamətində motivasiyaedici və stimullaşdırıcı mexanizmlər tətbiq olunur. Son illərdə yaradılan sənaye parklarında, yüksək texnoloji parklarda, sənaye məhəllələrində və aqroparklarda qeydiyyata düşən rezidentlər üçün onillik vergi güzəştləri mexanizmi tətbiq olunmuşdur.

Postkonflikt ərazilərdə yeni yaradılan iqtisadi mexanizmlərdə güzəştlərin və dövlət dəstəyi mexanizmlərinin daha geniş spekteri tətbiq olunmaqdadır. Məsələn, Ağdam şəhəri yaxınlığında yaradılan Ağdam Sənaye Parkı və Cəbrayıl rayonu ərazisində yaradılan "Araz Vadisi İqtisadi Zonası", həmçinin Laçında təşkil olunan Aqroparkda rezidentlər üçün 10 illik vergi güzəştləri ilə yanaşı, digər dövlət dəstəyi mexanizmləri də tətbiq olunmuşdur.

Lakin hesab edirik ki, müasir dövrdə tətbiq olunan vergi güzəştlərinin təkmilləşdirilməsinə və ümumilikdə ölkə üzrə vergi sisteminin mövcud mexanizmlərinin səmərəliliyinin artırılmasına ehtiyac vardır. Sahibkarlıq fəaliyyətinin bir çox sahələrində, xüsusilə innovasiya yönümlü və yüksək texnologiyalara əsaslanan fəaliyyət sahələrində tətbiq olunan vergi güzəştlərinin təkmilləşdirilməsi, müddətlərinin uzadılması istiqamətlərində daha səmərəli mexanizmlərə ehtiyac vardır. Digər tərəfdən, vergi sisteminin boğucu elementlərinin aradan qaldırılması və vergi dərəcələrinin stimullaşdırıcı keyfiyyətlərinin yüksəldilməsi tələb olunur. Vergi sisteminin öncül dünya təcrübəsinə uyğunlaşdırılması, tətbiq olunan metodoloji üslubların yenilənməsi, vergi sisteminin daha intensiv şəkildə rəqəmsallaşdırılması, Vergi Məcəlləsinin yeni variantının təsdiq olunması, rəqabət qabiliyyətli, eyni zamanda innovativ sahibkarlığın inkişafının gücləndirilməsində vergilərin rolunun artırılması üzrə daha mükəmməl və səmərəli fəaliyyət konsepsiyalarının və mexanizmlərinin hazırlanması və tətbiqinə

[4]Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – Bakı, – 28 dekabr 2017, № 1771.

zərurət qalmaqdadır.

Hesab edirik ki, bütün bu qeyd edilənlər dissertasiya işinin mövzusunun aktual olduğunu göstərir.

**Dissertasiya işinin mövzusunun işlənmə dərəcəsi** ilə əlaqədar bunu demək mümkündür ki, müasir iqtisadi transformasiyalardan irəli gələn çağırışlar da nəzərə alınmaqla, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, xüsusilə rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyəti mexanizmlərinin hazırlanması və tətbiqi, sahibkarlığın səmərəliliyinin artırılması proseslərində mövcud problemlərin araşdırılması, KOS subyektlərinin rəqabət qabiliyyətliliyinin artırılmasında vergi sisteminin rolunun gücləndirilməsi və bu proseslərdə vergi sisteminin təkmilləşdirilməsi məsələləri üzrə fundamental elmi əsərlər vardır.

Azərbaycanlı alimlərdən: akademik Z.Ə.Səmədzadə, E.A.Quliyev, A.F.Musayev, B.X.Ataşov, Ə.C.Muradov, Ə.Ə.Ələkbərov, Y.H.Həsənli, Z.F.Məmmədov, Y.A.Kəlbiyev, T.N.Əliyev, Ş.T.Əliyev, E.Ə.İbrahimov, P.Q.Rzayev və başqaları qeyd olunan istiqamətlər və problemlər üzrə elmi əsərlər yazmışlar.

Xarici ölkələrin tədqiqatçı-alimləri baxımından, qeyd etməliyik ki, klassik iqtisadi məktəbin nümayəndələri də daxil olmaqla, bir qrup alimlərin: A.Smit, A.Marşall, D.Rikardo, A.C.Piqu, R.Kantilyon, C.S.Mill, J.B.Say, J.M.Keyns, J.A.Şumpeter, P.A.Samuelson, M.Fridman, P.R.Kruqman, M.E.Porter, R.M.Solou, A.V.Laffer, M.O.Lorenz, həmçinin: Y.M.Artyomov, T.V.Bodrova, A.O.Klyukina, L.D.Kuznetsov, V.S.Murzin, S.V.Rezvuşkin, N.M.Turbina və digərlərinin elmi əsərlərində sahibkarlıq fəaliyyəti ilə bağlı problemlərə baxılmış, sahibkarlığın inkişaf etdirilməsi üzrə nəzəriyyələr və elmi müddəalar irəli sürülmüş, KOS subyektlərinin inkişafında və rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin formalaşdırılmasında vergi sisteminin təkmilləşdirilməsi istiqamətində araşdırmalar aparılmışdır.

Bunlarla yanaşı, hesab edirik ki, son onilliklərin çağırışlarından yanaşmaqla, sahibkarlıq fəaliyyətinin mövcud mexanizmlərinin yenilənməsinə, rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyəti modelinin formalaşdırılmasına və inkişaf etdirilməsinə, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin müasir mexanizmlər və alətlər əsasında

təşkilinə, bu proseslərdə vergi sisteminin rolunun artırılmasına və təkmilləşdirilməsinə zərurət qalmaqdadır.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyekti Azərbaycanda rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin gücləndirilməsi məqsədilə vergi sistemi, sahibkarlıq subyektləri və vergi strukturlarıdır. Tədqiqatın predmetini isə yeni çağırışlar şəraitində rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin təmin edilməsində vergi sisteminin nəzəri-metodoloji məsələləri, qanunauyğunluqları, vasitə və üsulları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin başlıca məqsədi müasir transformasiyalar şəraitində Azərbaycanda rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin təmin edilməsində vergi sisteminin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr hazırlamaqdan ibarətdir. Bunların reallaşdırılması məqsədilə dissertasiya işində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsində vergi sisteminin nəzəri məsələlərinin araşdırılması;
- müasir şəraitdə KOS subyektlərinin fəaliyyətində vergilərin səmərəliliyinin yüksəldilməsi üzrə metodoloji yanaşmaların müəyyənləşdirilməsi;
- sahibkarlığın gücləndirilməsində vergi sisteminin təkmilləşdirilməsi üzrə beynəlxalq təcrübənin öyrənilməsi;
- Azərbaycanda KOS subyektlərinin müasir vəziyyətinin təhlil olunması və bu proseslərdə vergilərin rolunun qiymətləndirilməsi;
- rəqabətqabiliyyətli sahibkarlıq fəaliyyətinin təmin olunmasında vergi sisteminin təsirinin qiymətləndirilməsi və vergi sisteminin rəqəmsallaşdırılmasının əhəmiyyətinin araşdırılması;
- KOS subyektlərinin rəqabətqabiliyyətinin gücləndirilməsində vergilərin dövlət tənzimlənməsi mexanizmlərinin tədqiqi və bu kontekstdə Vergi Məcəlləsinin təkmilləşdirilməsi tədbirlərinin müəyyənləşdirilməsi;
- yeni çağırışlar nəzərə alınmaqla, innovativ sahibkarlığın inkişafında vergilərin rolunun artırılması üzrə Fəaliyyət

Konsepsiyasının əsas müddəalarının hazırlanması;

- KOS subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə vergi sisteminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, bunlarla əlaqədar olaraq təkliflərin hazırlanması və s.

**Tədqiqat metodları.** Tədqiqatın gedişində abstraksiya, analiz, sintez, müqayisə, statistik təhlil və ümumiləşdirmə kimi metodlara daha çox yer verilmişdir. Digər tərəfdən, rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin təşkili və inkişaf etdirilməsi proseslərində vergi mexanizmlərinin səmərəliliyinin artırılması istiqamətlərində mövcud iqtisadi nəzəriyyələr, metodoloji yanaşmalar və konsepsiyalar diqqətdə saxlanılmışdır. Həmçinin bu istiqamətlər üzrə bir qrup ölkə və dünya alimlərinin elmi əsərlərinə istinadlar olunmuşdur.

Bunlarla bərabər, rəqabət qabiliyyətli sahibkarlığın inkişaf etdirilməsi və vergi sisteminin təkmilləşdirilməsi üzrə dövlət siyasətinin əsas elementləri, bu istiqamətlər üzrə ölkə qanunları və normativ sənədlər, dövlət başçısının fərman və sərəncamları, eyni zamanda ixtisaslaşdırılmış elmi-tədqiqat institutlarının analitik materialları nəzərə alınmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar bunlardır:**

1. Müasir çağırışlar və reallıqlar şəraitində dövlətin rəqabətqabiliyyətli sahibkarlıq fəaliyyəti və vergi sistemi ilə bağlı mövcud siyasətinin təkmilləşdirilməsinə, onun nəzəri – metodoloji əsaslarının dərindən öyrənilməsinə və adekvat tədbirlərin görülməsinə zərurət yaranmışdır.
2. Dünya ölkələrində sahibkarlığın inkişaf etdirilməsi, innovativ sahibkarlığın üstün cəhətlərindən səmərəli istifadə olunması və bu proseslərdə vergi sisteminin rolunun təkmilləşdirilməsi istiqamətləri üzrə əldə olunmuş öncül təcrübənin sistemli şəkildə öyrənilməsi və tətbiq edilməsi tədbirlərinə ehtiyac vardır.
3. Qlobal transformasiyalardan yanaşmaqla, Azərbaycanda sahibkarlıq fəaliyyətinin və rəqabət mühitinin mövcud vəziyyətinin təhlil olunması, bu proseslərdə vergi sisteminin, tətbiq olunan vergi mexanizmlərinin səmərəliliyinin təhlili və qiymətləndirilməsi günün tələbidir.

4. Azərbaycanda vergi sisteminin rəqəmsallaşdırılması proseslərinin daha da intensivləşdirilməsi və KOS subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsində rəqəmsal mexanizmlərdən istifadənin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

5. Qlobal trendlər nəzərə alınmaqla Azərbaycanda KOS subyektlərinin rəqabət qabiliyyətinin möhkəmləndirilməsində dövlət dəstəyi və tənzimlənməsi mexanizmlərinin, həmçinin qüvvədə olan Vergi Məcəlləsinin təkmilləşdirilməsi məsələlərinin ön plana çıxdığını görmək mümkündür.

6. Yüksək texnologiyalar və innovasiyalara əsaslanan iqtisadiyyat sahələrinin yaradılması, rəqəmsal və bilik iqtisadiyyatının formalaşdırılması və inkişaf etdirilməsində KOS subyektlərinin intensiv fəaliyyəti mühüm iqtisadi mexanizmə çevrilməsi bu sahədə dövlət siyasətinin, xüsusilə tənzimləyici mexanizmlərin təkmilləşdirilməsini qaçılmaz etmişdir.

7. İnnovativ sahibkarlığın inkişafında vergi alətlərinin rolunun artırılması üzrə Fəaliyyət Konsepsiyasının hazırlanmasına və KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması məqsədilə vergi sisteminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsinə ehtiyac duyulur.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardır:**

- rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin inkişafında vergi sisteminin roluna dair əsas nəzəri yanaşmalar və müddəalar sistemləşdirilmiş, diferensial vergi yükünün müəyyənləşdirilməsi metodologiyası və KOS subyektlərinin fəaliyyətində vergi inzibatçılığının səmərəliliyinin qiymətləndirilməsi üzrə metodoloji yanaşmalar hazırlanmışdır;
- müasir reallıqlar nəzərə alınmaqla, vergi inzibatçılığının rəqəmsallaşdırılmasının üstün cəhətləri sistemləşdirilmiş, vergi mexanizmlərinin səmərəlilik prinsipləri verilmiş və rəqəmsal vergi xidmətləri təsnifatlaşdırılmışdır;
- KOS-ların rəqabətqabiliyyətliliyinin artırılması məqsədilə vergi sahəsində rəqəmsal alətlər qruplaşdırılmış və vergi sisteminin rəqəmsallaşdırılmasının KOS-un rəqabətqabiliyyətliliyinə təsiri sxematik şəkildə verilmişdir;
- KOS-un rəqabət qabiliyyətinin möhkəmləndirilməsi

istiqamətlərinin və KOS-un rəqabət qabiliyyətinin möhkəmləndirilməsində vergi tənzimlənməsi vasitələrinin kateqoriyalara bölməklə blok-sxemləri hazırlanmışdır.

- KOS-un rəqabət qabiliyyətini gücləndirmək və vergi sisteminin səmərəliliyinin artırılması məqsədilə, Vergi Məcəlləsində bir qrup vergi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmiş və Məcəllənin stimullaşdırıcı mexanizmlərinin genişləndirilməsinin vacibliyi əsaslandırılmışdır;
- innovativ sahibkarlığa dövlət dəstəyi kimi vergi güzəştlərindən istifadənin müsbət təsirləri və vergi inzibatçılığının sadələşdirilməsinin innovasiya sahibkarlığının inkişafına təsiri müəyyənləşdirilmişdir;
- innovativ sahibkarlığın inkişaf etdirilməsində vergilərin səmərəliliyinin yüksəldilməsi və KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması baxımından vergi sisteminin təkmilləşdirilməsi üzrə Fəaliyyət Konsepsiyasının əsas tərkib elementləri işlənib hazırlanmışdır;
- yeni reallıqlar şəraitində vergi güzəştləri və təşviq mexanizmləri kontekstində KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti nöqteyi-nəzərindən bunu deyə bilərik ki, işdə əldə olunmuş elmi müddəalardan, təkliflərdən Azərbaycanda rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üzrə kompleks tədbirlərin görülməsində, KOS subyektlərinin rəqabət qabiliyyətinin təmin olunmasında vergi sisteminin təkmilləşdirilməsi mexanizmlərinin hazırlanmasında, vergi islahatlarının aparılmasında, sahibkarlığın inkişafı üzrə məqsədli fəaliyyət strategiyalarının formalaşdırılmasında, bunlarla bərabər dərsliklərin və dərs vəsaitlərinin yazılmasında istifadə etmək mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Azərbaycan Kooperasiya Universitetinin elmi-tədqiqat istiqamətlərinə uyğundur və universitetin müvafiq strukturlarında müzakirə olunmuş, Elmi Şurada isə təsdiq edilmişdir.

Dissertasiya işinin mövzusu üzrə iddiaçının 9 elmi əsəri, o

cümlədən, 5 məqalə və 4 tezis (onlardan 2 məqalə və 1 tezisi xaricdə olmaqla) Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi yerli və xarici jurnallarda dərc edilmişdir. Konfrans materialları sırasında “Sahibkarlığın rəqabət qabiliyyətinin gücləndirilməsində vergi mexanizminin aktual problemləri” (Bakı, 2025), “Azərbaycanda kiçik və orta sahibkarlığın rəqabət qabiliyyətinin gücləndirilməsində vergilərin rolunun təkmilləşdirilməsi” (Bakı, 2025), Современное состояние малого и среднего предпринимательства в Азербайджане (Москва, 2025), “Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərində vergilərin səmərəlilik problemləri” (Bakı, 2025) adlı tezisləri dərc olunmuşdur. Tədqiqat zamanı müəllifin həmçinin “Azərbaycanda rəqabət qabiliyyətli sahibkarlığın inkişafında vergi sisteminin səmərəliliyinin artırılması istiqamətləri” (Bakı, 2025), “Kiçik və orta sahibkarlıq fəaliyyətində vergilərin səmərəliliyinin yüksəldilməsinin metodoloji aspektləri” (Bakı, 2025), “Qlobal kontekstdə rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi problemlərinə nəzəri yanaşmalar” (Bakı, 2025), “Оценка влияния налоговой системы на повышение конкурентоспособности предпринимательской деятельности” (Москва, 2025), “Современные аспекты налогообложения малого и среднего бизнеса” (Москва, 2025) adlı məqalələri nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla işarə ilə ümumi həcmi**. Titul səhifəsi və mündəricat (1888 işarə), giriş (16111 işarə), I fəsil (82061 işarə), II fəsil (53461 işarə), III fəsil (64825 işarə), nəticə (17920 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (26406 işarə) üzrə ümumi həcm 285674 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 234378 işarədir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqatın **giriş** bölməsində dissertasiya işinin mövzusunun aktuallığı və işlənmə səviyyəsi araşdırılmış, obyekti və predmeti verilmiş, məqsəd və vəzifələri, metodlar, əsas müddəalar, elmi yeniliklər əks olunmuşdur.

Dissertasiyanın **"Sahibkarlıq fəaliyyətində vergi sisteminin təkmilləşdirilməsinin nəzəri - metodoloji əsasları"** adlı I fəslində rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin və onun inkişafında vergi sisteminin rolunun nəzəri əsasları araşdırılmış, iqtisadi transformasiyalar dövründə kiçik və orta sahibkarlıq fəaliyyətində vergilərin səmərəliliyinin artırılması üzrə metodoloji yanaşmalar müəyyənləşdirilmiş və sahibkarlığın inkişafında vergi sisteminin təkmilləşdirilməsinə dair dünya təcrübəsi öyrənilmişdir.

Sahibkarlıq fəaliyyəti ilə əlaqədar olaraq klassik iqtisadi baxışlar və bu məktəbin nümayəndələrinin fikirləri maraq doğurur. Belə ki, analoji yanaşmalar hələ də aktuallığı ilə diqqət çəkir. Məsələn, R.Kantilyonun yanaşmalarında rəqabətqabiliyyətli sahibkarlıq fəaliyyəti xüsusi önəm kəsb etmişdir. Onun yanaşmaları sahibkarlıq konsepsiyasının əsasları kimi qiymətləndirilir və daim ona istinadlar edilir. R.Kantilyona görə, "*rəqabətqabiliyyətli sahibkarlıq fəaliyyətinin əsasını sahibkarın risk götürmə qabiliyyəti, bazar şərtlərinə uyğunlaşması, sərbəst rəqabət mühitində səmərəli fəaliyyət göstərməsi və qiymət mexanizminin effektiv işləməsi təşkil edir*"[5] Fikrimizcə, bu yanaşmalar müasir şəraitdə də kifayət qədər aktualdır və sahibkarlıq institutunun inkişaf mexanizmlərinin təkmilləşdirilməsində aktuallığını qoruyub saxlayır. Klassik iqtisadi məktəbin banisi A.Smit isə hesab edirdi ki: "*Fərdi maraqların təmini üçün fəaliyyət göstərən sahibkarlar qeyri-ixtiyari olaraq ümumi iqtisadi rifahın yüksəlməsinə xidmət edirlər*"[6]. Əlavə edək ki, müasir dövrümüzdə də sahibkarlıq subyektləri sosial-iqtisadi inkişaf proseslərində fəallığı ilə öndədirlər və bazar iqtisadiyyatı şəraitində

---

[5] Кантильон, Р. Эссе о природе торговли в общем плане // Мировая экономическая мысль. Сквозь призму веков. – Москва: Мысль, – 2004. – 82 с.

[6] Смит, А. Исследование о природе и причинах богатства народов. Издательская группа ЭКСМО, – 2019. – 471 с.

iqtisadi inkişaf proseslərinin əsasında yer almışlar. Klassik iqtisadi məktəbin digər görkəmli nümayəndəsi olan D.Rikardoya görə isə: "fərqli ölkə və ya bölgələr, müəyyən məhsul və ya xidmətləri daha aşağı alternativ xərclə istehsal edə bilirsə, o sahələrə yönəlməli və iqtisadi resurslarını həmin istiqamətdə səfərbər etməlidirlər"[7]. Bu fikirlərə rəğmən onun təklif etdiyi digər mühüm bir nəzəriyyə - müqayisəli üstünlüklər nəzəriyyəsi diqqəti cəlb edir. Y.Şumpeterin baxışlarına görə isə: "*sahibkarlar yeni ideyaların, texnologiyaların və məhsulların tətbiqi ilə bazarda inqilabi dəyişikliklər yaradırlar ki, bu da rəqabətin yüksəlməsinə, məhsuldarlığın artmasına və ümumi iqtisadi inkişafın sürətlənməsinə səbəb olur*"[8]. Bu gün də qeyd olunan baxışlar aktuallığını qoruyur. Yeni ideyalar, yüksək texnologiyaların və innovasiyaların tətbiqi müasir sahibkarlıq fəaliyyəti üçün mütləq səciyyəvi xüsusiyyətlərdəndir. M.Porter isə bu fikirdə idi ki: "*rəqabət qabiliyyətli sahibkarlıq bazar strukturunun təhlilindən başlayaraq, öz resurslarını və imkanlarını məqsədyönlü şəkildə formalaşdırmalı, həmçinin rəqiblərdən fərqlənən unikallığa malik olmalıdır*"[9]. Biz də belə düşünürük ki, mövcud resurslardan səmərəli və məhsuldar istifadə olunmasında sahibkarlıq subyektlərinin rolu böyükdür və belə bir şəraitdə onların rəqabət qabiliyyətinin artması üçün əlavə imkanlar formalaşır. Akademik Z.Ə.Səmədzadə hesab edir ki, "*Azərbaycanda sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar. Aparılan islahatlar və dövlət dəstəyi tədbirləri nəticəsində özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilmişdir. Belə hesab edilir ki, qarşıdakı 10 illikdə dünyada hər 10 iş yerindən 7-si kiçik və orta sahibkarlar tərəfindən yaradılacaq*"[10]**.** Biz də hesab edirik ki, Azərbaycanda son illərdə sahibkarlığın daha səmərəli

---

[7]Ricardo, D. On the Principles of Political Economy and Taxation, 1817. Batoche Books, Kitchener, Ontario. – 2001, – 78 p.
[8]Shumpeter, J.A. Business Cycles. Theoretical, Historical and statistical Analysis of Capitalist Proces. N.Y. – 1939, Vol. 1.2. – p. 166.
[9]Porter, M.E. The five competitive forces that shape strategy // – Harvard: Harvard business review, – 2008. 86 (1), – p. 82.
[10]Səmədzadə, Z.Ə.: Kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılır (2022), s.1. [Elektron resurs] / URL: https://iqtisadiyyat.com/az/pages/5/news/1324.

inkişafı üçün sistemli tədbirlər görülür, xüsusilə, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin prioritetliyi ön plana çıxıb.

C.M.Keynsin təklif etdiyi fiskal yanaşmalarda vergi sistemləri büdcə gəlirlərini təmin edən vasitəsi olmaqla bərabər, iqtisadi aktivliyi stimullaşdıran, sərmayələri təşviq edən və ümumi tələbi tənzimləyən əsas mexanizmlərdən biri kimi qəbul edilirdi. C.Keynsin fikrincə, "*vergi sistemi iqtisadiyyatda çevik və təsirli bir tənzimləmə aləti kimi çıxış edir*"[11]. Biz bu fikirlə tam razılaşmaqla yanaşı, qeyd edirik ki, müasir dövrdə vergi sistemi həm də iqtisadiyyatda stimullaşdırıcı və motivasiyaedici funksiyaları da yerinə yetirir. M.Fridmana görə isə, *"vergi yükünün azaldılması sahibkarlıq ruhunun canlanmasına, investisiyaların çoxalmasına, məşğulluğun yüksəlməsinə və inflyasiyanın azalmasına şərait yaradır ki, bu da iqtisadi inkişafla yanaşı, sosial problemlərin yumşalmasına səbəb olur"*[12] Bu fikirlə razılaşmaqla bərabər, əlavə edək ki, pul dövriyyəsinin idarə olunması isə dövlətin birbaşa vəzifəsidir və bu istiqamətdə görülən əsas tədbirlərə artıq vəsaitin bazardan çıxarılması, kreditlərin düzgün istiqamətləndirilməsi və effektiv vergitutma siyasəti daxildir. Dövlət iqtisadi canlanmanı təmin etmək üçün vergi yükünü azaltmalı, pul təklifi və faiz dərəcələrinə təsir göstərən adekvat tədbirlər reallaşdırmalıdır.

Diferensial vergi yükünün müəyyənləşdirilməsi metodologiyasını şəkil 1-də göstərilən mərhələlər ardıcıllığında vermək olar.

Metodoloji baxımdan differensial vergi yükünün tətbiqi üçün, ilk öncə, sahibkarlıq subyektlərinin kateqoriyalar üzrə dəqiq təsnifatı aparılmalı, onların dövriyyələri, gəlirləri, fəaliyyət sahələri və hüquqi formaları nəzərə alınmalıdır.

KOB subyektləri üzrə vergi yükünün ölçülməsi baxımından bir qrup məqamlara diqqət yetirmək istərdik. Analoji ölçülmə əməliyyatları əsasən bəlli bir müddət ərzində büdcəyə, həmçinin büdcədən kənar fondlara yığılan ümumi vergi və icbari ödənişlərin ÜDM-ə nisbəti ilə aparılır. Bu halda həm də dövlət strukturlarının

---

[11]Keynes, J.M. A tract on monetary reform./ Cambrıdge Macmıllan and co., Lımıted st. Martın's street, London, 1924. – 75 p.

[12]Friedman, M. A Program for Monetary Stability. Fordham University Press, 1960. – 57 p.




**Şəkil 1. Diferensial vergi yükünün müəyyənləşdirilməsi metodologiyası**
*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

iqtisadi proseslərə müdaxiləsinin sərhədlərini müəyyənləşdirmək mümkündür. Belə ki, Maliyyə Nazirliyinin nəzdində yerləşən nəzarətedici qurumlar və Dövlət Vergi Xidmətinin strukturları tərəfindən formalaşan yanaşmalarda vergi yükünün ölçülməsində müəssisənin ödədiyi vergilərin, həmçinin aksizlərin həmin müəssisənin ümumi gəlirinə nisbəti kimi götürülür. Yəni, Vegi Yükü (VY) = Cəmi vergilər (CV) : Ümumi gəlir (ÜG) sxemi formasında baxmaq olar.

İqtisadi transformasiyalar dövründə KOS fəaliyyətində vergilərin səmərəliliyinin artırılması baxımından vergi inzibatçılığının rolunun qiymətləndirilməsi üzrə metodoloji yanaşmanı ümumi blok-sxem şəklində təqdim edirik (şəkil 2).




**Şəkil 2. KOS fəaliyyətində vergi inzibatçılığının səmərəliliyinin qiymətləndirilməsi üzrə metodoloji yanaşmanın blok-sxemi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Vergi güzəştlərinin və preferensiyalarının KOS üçün məqsədyönlü şəkildə tətbiqi də metodoloji baxımdan mühüm alətlərdəndir. Lakin güzəştlərin səmərəliliyi onların vergi inzibatçılığı vasitəsilə nəzarətə götürülməsi və monitorinq mexanizmlərinin mövcudluğu ilə şərtlənir. Bu səbəbdən, güzəştlər sisteminə dair metodoloji çərçivənin yaradılması, onların iqtisadi təsirlərinin qiymətləndirilməsi və nəticə əsaslı yanaşmaların tətbiqi zərurətə çevrilir.

Sahibkarlığın inkişafında vergi sisteminin təkmilləşdirilməsinə dair dünya ölkələrinin təcrübəsi baxımından qeyd edək ki, müasir

dövrdə iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən biri olan sahibkarlığın stimullaşdırılması istənilən ölkənin vergi siyasətində önəmli yer tutur. ABŞ vergi sistemi federal, yerli və regional səviyyələri əhatə edir, büdcəyə ən böyük maliyyə daxilolmaları gəlir vergiləri hesabınadır. Mənfəət vergisinin əsasını əhalinin ən imkanlı hissəsinin maliyyə resursları təşkil edir. "*Gəlir vergiləri əmək fəaliyyətinin bütün mümkün növlərindən, o cümlədən müqaviləli əmək və bazarda öz əmlakının satışı ilə yanaşı birdəfəlik gəlir gətirən əmək fəaliyyətindən tutulur*"[13]. Çin, son illərdə KOS-un inkişafını dəstəkləmək məqsədilə sadələşdirilmiş vergi rejimləri tətbiq etmiş, mikro müəssisələrə və yeni yaradılan bizneslərə aşağı vergi dərəcələri müəyyən etmişdir. Çində ümumilikdə 17 müxtəlif vergi növü tətbiq olunur və vergi ödəyiciləri illik dövriyyələrinə əsasən iki əsas kateqoriyaya ayrılır: illik dövriyyəsi 5 milyon yuana qədər olan kiçik vergi ödəyiciləri və 5 milyon yuandan artıq olan adi vergi ödəyiciləri. Vergi güzəştləri isə iqtisadi cəhətdən prioritet sahələrin inkişafını təşviq etmək üçün nəzərdə tutulur və onların tətbiqi müəyyən regionların siyasətindən asılı olaraq fərqlənə bilər.

Azərbaycanla Avropa İttifaqı ölkələri arasında vergi sisteminin müqayisəsi barədə bir qrup məqamları qeyd etmək istərdik. Belə ki, Azərbaycanda gəlir vergisi dərəcələri xeyli aşağıdır, Avropa İttifaqının bir sıra ölkələrində bu göstərici 50 %-ə qədər təşkil edir. Amma, mənfəət vergisi baxımından, Azərbaycanda vergi dərəcəsi 20% təşkil etdiyi halda Avropa ölkələrində, məsələn Macarıstanda bu göstərici 9% səviyyəsindədir. Lakin, inkişaf etmiş Qərb dövlətlərində, o cümlədən Almaniyada, həmçinin Fransada bu vergi dərəcələri xeyli yüksəkdir. Daha bir göstərici, ƏDV dərəcəsi Azərbaycanda 18% olduğu halda Avropa İttifaqı ölkələrində bu göstərici 25%-dən çoxdur.

Hesab edirik ki, Azərbaycan qeyd olunan dünya təcrübəsi nümunələrindən bəhrələnə bilər, amma hər hansı bir ölkənin sahibkarlığın inkişafı istiqamətində vergi sisteminin təkmilləşdirilməsinə dair təcrübəsinin öyrənilməsi və tətbiqi zamanı

---

[13]Babukin, G.M. Foreign Experience: Tax Load and Economic Growth / G.M. Babukin // Мировая экономика: проблемы безопасности. – 2020. No. 3, – p. 18.

ölkəmizin iqtisadi inkişaf modelinin xüsusiyyətləri, həmçinin sahibkarlığın inkişafı ilə bağlı dövlət siyasətinin əsas tərkib elementləri və vergi sisteminin inkişaf xüsusiyyətləri nəzərə alınmalıdır.

Dissertasiya işinin **“Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin müasir vəziyyətinin təhlili və vergi sisteminin səmərəliliyinin qiymətləndirilməsi”** adlı ikinci fəslində Azərbaycanda kiçik və orta sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti təhlil olunmuş, KOS-ların fəaliyyətində tətbiq olunan vergilər təhlil edilmiş və qiymətləndirilmiş, vergi sisteminin rəqəmsallaşdırılması, KOS-un rəqabətqabiliyyətliliyinin artırılmasında rolu tədqiq edilmişdir.

Cədvəl 1-də Azərbaycan iqtisadiyyatında 2018-2023-cü illər üzrə KOS subyektlərinin bir sıra mühüm makroiqtisadi göstəricilərinin təhlili verilmişdir. Cədvəl 1-in göstəricilərindən yanaşsaq qeyd edə bilərik ki, 2018-2023-cü illərdə ölkəmizdə KOS subyektləri tərəfindən yaradılmış əlavə dəyərin həcmi 2 dəfə artmış və işçi sayı 38 %-ə yaxın yüksəlmişdir. Bununla yanaşı qeyd etmək olar ki, təhlil olunan dövr ərzində KOS subyektləri tərəfindən əsas kapitala yönəldilən investisiyaların həcmi 3 dəfəyə yaxın azalmışdır. 2023-cü ildə araşdırılan sahibkarlıq subyektləri tərəfindən 20087,1 milyon AZN həcmində əlavə dəyər yaradılıb ki, bu göstərici 2022-ci illə müqayisədə 2 916,7 milyon AZN və ya 17,0% çoxdur. Bu artımın 561,3 milyon AZN-i və ya 7,9%-i mikro sahibkarlıq, 404,7 milyon manatı və ya 14,5%-i kiçik sahibkarlıq, 1950,7 milyon AZN-i və ya 26,8%-i isə orta sahibkarlıq subyektlərinin payına düşür.

Vergi, dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyələşdirilməsi üçün vergi ödəyicilərinin sahib olduqları pul vəsaitlərinin dövlət və yerli büdcələrə məcburi, fərdi və əvəzsiz şəkildə ödənilməsidir. *“Azərbaycanda vergiyə dair bütün hüquqi və inzibati məsələlər Vergi Məcəlləsi əsasında tənzimlənir”*[14].

[14] Məhərrəmova, R. Sahibkarlıq. / R.Məhərrəmova, S.Musayeva – Bakı, – 2019. – 55 s.

**Cədvəl 1**

**Azərbaycanın iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri 2018-2023-cü illər**

| İllər | Yaradılmış əlavə dəyər, milyon manat | İşçilərin sayı, min nəfər | Orta aylıq nominal əmək haqqı, manat | Əsas kapitala investisiyalar, milyon manat | Fəaliyyətdə olan sahibkarlıq subyektləri |
|---|---|---|---|---|---|
| **2018:** | | | | | |
| ***Cəmi*** | 9836,6 | 283,4 | 445,3 | 6953,0 | 244883 |
| *Mikro* | 4467,8 | 35,0 | 294,9 | 2831,5 | 237815 |
| *Kiçik* | 1235,5 | 76,1 | 373,5 | 1046,7 | 4930 |
| *Orta* | 4133,3 | 172,4 | 517,1 | 3074,8 | 2138 |
| **2019** | | | | | |
| ***Cəmi*** | 11071,7 | 332,2 | 531,0 | 3422,2 | 271304 |
| *Mikro* | 4900,8 | 40,2 | 332,5 | 515,5 | 262622 |
| *Kiçik* | 1423,2 | 85,1 | 437,0 | 494,2 | 5956 |
| *Orta* | 4747,7 | 206,9 | 624,6 | 2412,5 | 2726 |
| **2020** | | | | | |
| ***Cəmi*** | 10941,0 | 348,7 | 612,3 | 2674,1 | 316370 |
| *Mikro* | 4455,2 | 40,9 | 359,4 | 970,2 | 307717 |
| *Kiçik* | 1617,9 | 92,1 | 533,8 | 380,4 | 5943 |
| *Orta* | 4867,9 | 215,7 | 714,4 | 1323,5 | 2710 |
| **2021** | | | | | |
| ***Cəmi*** | 13956,1 | 357,8 | 632,2 | 3387,7 | 355906 |
| *Mikro* | 5790,8 | 40,9 | 382,5 | 1706,2 | 346171 |
| *Kiçik* | 2384,3 | 102,2 | 528,2 | 892,7 | 6856 |
| *Orta* | 5781,0 | 214,8 | 748,3 | 788,8 | 2879 |
| **2022** | | | | | |
| ***Cəmi*** | 17 170,4 | 370,1 | 707,9 | 2 827,1 | 377 842 |
| *Mikro* | 7 091,9 | 42,4 | 450,8 | 857,1 | 366 944 |
| *Kiçik* | 2796,1 | 104,8 | 575,6 | 955,1 | 7 760 |
| *Orta* | 7 282,4 | 222,9 | 843,0 | 1 014,9 | 3 138 |
| **2023** | | | | | |
| ***Cəmi*** | 20 087,1 | 390,8 | 765,8 | 2 366,1 | 401 149 |
| *Mikro* | 7 653,2 | 49,9 | 501,5 | 303,5 | 389 133 |
| *Kiçik* | 3200,8 | 110,3 | 642,8 | 794,0 | 8 610 |
| *Orta* | 9 233,1 | 230,6 | 899,4 | 1 268,6 | 3406 |
| ***2018-2023 artıb-azalma +/-*** | | | | | |
| ***Cəmi*** | 2,04 dəfə | 37,9 % | 72,0 % | - 2,94 dəfə | 63,8 % |
| *Mikro* | 71,3 % | 42,6 % | 70,1 % | - 9,33 dəfə | 63,6 % |
| *Kiçik* | 2,6 dəfə | 44,9 % | 72,1 % | - 31,8 % | 74,6 % |
| *Orta* | 2,23 dəfə | 81,35 % | 73,9 % | - 2,42 dəfə | 59,3 % |

*Mənbə: ARDSK- https://www.stat.gov.az/source/finance/ əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 2-də isə ölkəmizdə iqtisadi fəaliyyət növləri üzrə KOS subyektləri tərəfindən 2019-2023-cü illərdə ödənilən vergilərin dinamikası verilmişdir.

Cədvəl 2-nin təhlilindən baxsaq görə bilərik ki, 2019-2023-cü illərdə ümumilikdə KOS subyektləri tərəfindən ödənilən vergilərin həcmi 44,4 % artmışdır, bu artım sənaye sektorunda 57,3 %, tikintidə - 28,1 %, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 70,4 %, nəqliyyat və anbar təsərrüfatı sahəsində 46,2 %, turizmdə 67,6% və s. təşkil etmişdir. Vergilərin ödənilməsi üzrə az artım göstəriciləri kənd təsərrüfatında və informasiya və rabitə sektorunda qeydə alınmışdır. Kənd təsərrüfatında bir sıra vergilər üzrə güzəştlər vardır və hesab edirik ki, hazırda tətbiq olunmuş vergi güzəştlərinin kompleks və sistemli şəkildə yenidən baxılması, bu mexanizmlərin stimullaşdırıcı rolunun artırılması daha çox fayda verə bilər.

KOS-ların rəqabətqabiliyyətliliyinin artırılması üçün vergi sahəsində rəqəmsal alətlər bir qrup mühüm fəaliyyət istiqamətlərində önəmli rol oynaya bilər:

1. Vergi hesabatlarının sadələşdirilməsi. Elektron bəyannamə sistemləri vasitəsilə KOS-lar öz vergi hesabatlarını daha asan şəkildə təqdim edə bilirlər. Əlverişli interfeys və avtomatlaşdırılmış kalkulyatorlar insan səhvlərinin qarşısını alır və hesabatların vaxtında təqdim edilməsini təmin edir.

2. Real vaxt rejimində məlumat axını. Rəqəmsallaşdırma vergi orqanları ilə sahibkarlar arasında informasiya axınını operativ və interaktiv edir. Məsələn, "e-kassa" və "onlayn kargüzarlıq" sistemləri vasitəsilə dövriyyə və satış məlumatları dərhal vergi orqanlarına ötürülür.

3. Ədalətli rəqabət mühiti. Rəqəmsal nəzarət vasitələrinin tətbiqi kölgəli iqtisadi fəaliyyətləri minimuma endirir. Bu isə qanuni fəaliyyət göstərən KOS-lar üçün ədalətli bazar şəraiti yaradır.

4. İnvestisiya mühitinin yaxşılaşdırılması. Şəffaf və proqnozlaşdırıla bilən vergi sistemi investorlar üçün cəlbedici olur. Rəqəmsallaşma sayəsində risklər azalır və daha çox KOS-lar yeni bazarlara çıxmaq və böyümək imkanı əldə edir.

**Cədvəl 2**

**Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən ödənilən vergilər, mln. manat, 2019-2023-cü illər**

| İllər | İqtisadi fəaliyyət növləri üzrə cəmi, o cümlədən | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | Sənaye | Tikinti | Ticarət; nəqliyyat vasitələrinin təmiri | Nəqliyyat və anbar təsərrüfatı | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | İnformasiya və rabitə | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | Təhsil | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | Digər sahələr |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **2019:** | | | | | | | | | | | | |
| ***Cəmi*** | 1643,8 | 12,8 | 216,8 | 334,0 | 354,8 | 49,7 | 68,0 | 132,9 | 49,8 | 15,8 | 25,0 | 384,2 |
| *Mikro* | 241,0 | 4,4 | 8,3 | 27,0 | 82,4 | 8,6 | 10,7 | 12,3 | 9,0 | 2,2 | 1,6 | 74,5 |
| *Kiçik* | 379,8 | 2.8 | 39,1 | 73,4 | 88,5 | 13,8 | 18,6 | 35,5 | 19,4 | 3,4 | 4,9 | 80,4 |
| *Orta* | 1023,0 | 5,6 | 169,4 | 233,6 | 183,9 | 27,3 | 38,7 | 85,1 | 21,4 | 10,2 | 18,5 | 229,3 |
| **2020** | | | | | | | | | | | | |
| ***Cəmi*** | 2022,7 | 13,4 | 430,1 | 437,1 | 354,2 | 146,3 | 30,9 | 201,9 | 46,2 | 13,1 | 33,7 | 315,8 |
| *Mikro* | 503,5 | 3,1 | 190,3 | 40,3 | 85,1 | 90,2 | 4,9 | 10,3 | 4,4 | 1,9 | 1,7 | 71,3 |
| *Kiçik* | 501,2 | 3,3 | 105,7 | 128,8 | 87,4 | 18,5 | 6,5 | 39,7 | 16,6 | 2,4 | 4,6 | 87,6 |
| *Orta* | 1018,0 | 7,0 | 134,1 | 268,0 | 181,6 | 37,6 | 19,5 | 151,9 | 25,2 | 8,8 | 27,4 | 156,9 |
| **2021** | | | | | | | | | | | | |
| ***Cəmi*** | 2849,2 | 18,1 | 1050,3 | 402,3 | 455,0 | 241,3 | 44,2 | 207,2 | 47,5 | 17,1 | 35,4 | 357,8 |
| *Mikro* | 1161,7 | 4,6 | 750,8 | 35,4 | 91,4 | 158,1 | 6,1 | 14,1 | 6,4 | 2,0 | 1,7 | 91,1 |
| *Kiçik* | 538,9 | 4,4 | 102,9 | 104,5 | 128,4 | 23,8 | 11,9 | 57,3 | 19,6 | 3,9 | 5,7 | 76,5 |
| *Orta* | 1148,6 | 9,1 | 196,6 | 262.4 | 235,2 | 32,4 | 26,2 | 135,8 | 21,5 | 11,2 | 28,0 | 190,2 |
| **2022** | | | | | | | | | | | | |
| ***Cəmi*** | 1 791,6 | 16,9 | 242,3 | 354,6 | 503,0 | 60,4 | 63,2 | 84,8 | 46,8 | 15,5 | 43,1 | 361,0 |
| *Mikro* | 238,9 | 6,2 | 20,7 | 23.6 | 85,2 | 13,8 | 6,7 | 10,6 | 8,2 | 3,4 | 1,9 | 58,6 |
| *Kiçik* | 616,0 | 4,0 | 74,5 | 135,0 | 151,9 | 18,9 | 15,2 | 27,9 | 22,9 | 4,1 | 7,2 | 154,4 |
| *Orta* | 936,7 | 6,7 | 147,1 | 196,0 | 265,9 | 27,7 | 41,3 | 46,3 | 15,7 | 8,0 | 34,0 | 148,0 |

*Cədvəl 2-nin davamı*

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **2023** | | | | | | | | | | | | |
| ***Cəmi*** | 2 374,2 | 15,7 | 341,1 | 428,1 | 604,8 | 73,1 | 114,0 | 149,0 | 75,1 | 23,9 | 43,8 | 505,6 |
| *Mikro* | 351,9 | 6,5 | 21,3 | 48,4 | 102,2 | 7,4 | 10,9 | 14,0 | 5,6 | 4,2 | 2,3 | 129,1 |
| *Kiçik* | 615,3 | 3,8 | 80,8 | 123,7 | 164,1 | 30,1 | 28,8 | 36,7 | 25,9 | 5,0 | 9,2 | 107,2 |
| *Orta* | 1 407,0 | 5,4 | 239,0 | 256,0 | 338,5 | 35,6 | 74,3 | 98,3 | 43,6 | 14,7 | 32,3 | 269,3 |
| ***2019-2023 artıb-azalma +/-*** | | | | | | | | | | | | |
| ***Cəmi*** | 44,4% | 22,7% | 57,3% | 28,1% | 70,4% | 46,2% | 67,6% | 12,0% | 50,8 % | 51,9% | 75,2% | 31,6% |
| *Mikro* | 46,1% | 47,7% | 2,57 dəfə | 79,3% | 24,0% | -16,2% | 2,8 % | 13,8 | -607 % | 90,9% | 43,8% | 73,3 |
| *Kiçik* | 61,9% | 35,7% | 2,1 dəfə | 68,9% | 85,3 % | 2,18 dəfə | 54,8% | 3,4 % | 34,0% | 47,1 | 87,8 % | 33,3 |
| *Orta* | 37,5% | -3,7% | 41,1% | 9,6% | 84,0% | 30,4% | 92,0% | 15,5 % | 2,0 dəfə | 44,1% | 74,6% | 17,4% |

*Mənbə: ARDSK. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/entrepreneurship_2024.pdf - əsasında hazırlanmış və hesablanmışdır.*

Şəkil 3-də vergi sisteminin rəqəmsallaşdırılmasının KOS-un rəqabətqabiliyyətliliyinə təsirini əks etdirmişik.




**Şəkil 3. Vergi sisteminin rəqəmsallaşdırılmasının KOS-un rəqabətqabiliyyətliliyinə təsiri**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Qeyd etməliyik ki, son illərdə Azərbaycanda vergi sisteminin rəqəmsallaşdırılması prosesi uğurla reallaşdırılır. Bu istiqamətdə ciddi islahatlar aparılır və vergi inzibatçılığının rəqəmsallaşdırılması sahəsində əldə olunan uğurlar KOS-un inkişafı və onların rəqabətqabiliyyətliliyinin artırılması üçün yeni imkanlar yaradır.

Regionlar üzrə KOS subyektləri ilə bağlı vergi siyasətinin daha dərindən baxılması və nəticələrinin dəyərləndirilməsini vacib hesab edirik. Məlumdur ki, Bakı və digər regionlarla vergi dərəcələri arasında müəyyən fərqlər vardır və bunların sahibkarlıq fəaliyyətinə təsiri diqqət çəkir. Məsələn, illik gəliri 200 min manatdan az olan mikro sahibkarlıq subyektləri əhəmiyyətli dərəcədə vergi güzəştinə malikdirlər, başqa sözlə, mənfəətdən 75 % azaddırlar. Regionlarda investorlar üçün gəlir, əmlak və torpaq vergiləri üzrə 50 %-lik güzəşt vardır. Postkonflikt ərazilərdə - Qarabağ və Şərqi Zəngəzur iqtisadi

rayonlarında KOS subyektləri mənfəət, torpaq və əmlak vergilərindən 10 il azaddırlar və həmçinin sadələşdirilmiş vergidən də azad olunublar.

Digər tərəfdən, elektron vergi xidmətlərinin sahibkarlıq fəaliyyətinə praktiki baxımdan təsirinin, o cümlədən vergi xidmətləri, onlayn kassa aparatları və e-qaimə sisteminin sahibkarlıq fəaliyyətinə və vergi intizamına təsiri xüsusi diqqət çəkir. Məsələn, sahibkarlıq subyektləri vergi hesabatlarını elektron formada təqdim etməklə vaxt itkisinin qarşısını alır və həm də əməliyyat xərclərini azaldır. Bundan əlavə, elektron ödəmələr vasitəsilə şəffaflıq artırılır və digər sənədlərin elektronlaşdırılması biznes proseslərini sürətləndirir. Elektron əməliyyatlar kölgə iqtisadiyyatının azaldılması üçün yeni imkanlar formalaşdırır. Vergi nəzarətinin daha səmərəli təşkili baxımından elektron alətlərin rolu əhəmiyyətli səviyyədə artmışdır.

Dissertasiya işinin **“Yeni şəraitdə Azərbaycanda rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin gücləndirilməsində vergi sisteminin təkmilləşdirilməsi perspektivləri”** adlı üçüncü fəslində KOS-ın rəqabət qabiliyyətinin möhkəmləndirilməsində vergilərin tənzimləyici rolunun artırılması və rəqabət qabiliyyətinin gücləndirilməsi kontekstində Vergi Məcəlləsinin təkmilləşdirilməsi məsələləri baxılmış, innovativ sahibkarlığın inkişaf etdirilməsində vergilərin səmərəliliyinin yüksəldilməsi üzrə Fəaliyyət Konsepsiyası təklif edilmiş, həmçinin KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılmasında vergi sisteminin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir.

Vergi siyasəti ilə sahibkarlıq subyektlərinin fəaliyyəti və göstəriciləri arasında əlaqələrin araşdırılmasına və qiymətləndirilməsinə xüsusi zərurət vardır. Belə ki, sahibkarlıq subyektlərinin vergi daxilolmaları və digər göstəricilər üzrə verdiyi töhfənin obyektiv qiymətləndirilməsi vacibdir. Məsələn, vergi dərəcələrinin optimallaşdırılması hesabına investisiya fəaliyyətinin genişləndirilməsi mümkündür. Yaxud müəssisələrin vergi yüklərinin çox olması son nəticədə onların mənfəətini aşağı salır, bu isə müəssisənin qarşısında duran strateji vəzifələrin yerinə yetirilməsində müəyyən problemlər yaradır.

Qeyd edək ki, KOS-un rəqabət qabiliyyətinin möhkəmləndirilməsinə imkan verən əsas amilləri fərqləndirmişik: 1) sahibkarlıq fəaliyyətinin uğurlu başlaması üçün başlanğıc kapitalın və peşəkar hazırlığın olması; 2) KOS-un informasiya təminatı sisteminin yüksək səviyyədə inkişafı; 3) KOS-un vergi yükünün aşağı olması; 4) kiçik biznesin enerji və nəqliyyat infrastrukturuna çıxışının asanlaşdırılması və s.

KOS-un rəqabət qabiliyyətinin möhkəmləndirilməsi istiqamətlərini sxematik olaraq şəkil 4-də verilmişdir.




**Şəkil 4. KOS-un rəqabət qabiliyyətinin möhkəmləndirilməsi istiqamətlərinin blok-sxemi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Hesab edirik ki, KOS-un rəqabətqabiliyyətliliyi dövlətin tətbiq etdiyi vergi siyasətindən və bu siyasətin effektiv tənzimləmə mexanizmlərindən də birbaşa asılıdır.

Şəkil 5-də Vergi tənzimlənməsinin KOS-un rəqabət qabiliyyətini gücləndirən əsas vasitələrinin kateqoriyalara bölünməklə blok-sxemi hazırlanmışdır.




**Şəkil 5. KOS-un rəqabət qabiliyyətinin möhkəmləndirilməsində vergi tənzimlənməsi vasitələrinin kateqoriyalara bölünməklə blok-sxemi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Şəkil 5-dən yanaşsaq, birbaşa vasitələr sahibkarların maliyyə yükünü yüngülləşdirir, dolayı vasitələr isə iqtisadi mühitin şəraitini yaxşılaşdırır. Vergi inzibatçılığı isə sistemin şəffaflığı və sadəliyini təmin edir, innovasiya və inkişaf vasitələri isə texnoloji tərəqqini dəstəkləyir. Bu elementlərin inteqrasiya olunmuş şəkildə tətbiqi KOS-un dayanıqlı və rəqabətədavamlı inkişafına şərait yaradır.

Azərbaycanda KOS-un rəqabət qabiliyyətinin gücləndirilməsi və

bazar iqtisadiyyatına səmərəli inteqrasiyası dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirilib ki, bu kontekstdə vergi siyasəti və xüsusilə də Vergi Məcəlləsinin rolu ön plana çıxır. Məcəllənin tətbiqi, ölkədə vergi siyasətinin formalaşması və iqtisadi fəaliyyətin leqallaşdırılması baxımından böyük önəm daşıyır[15]. 2023-cü il yanvarın 1-dən etibarən Vergi Məcəlləsinə edilən növbəti dəyişikliklərə əsasən, ƏDV-nin istehlakçılara geri qaytarılan məbləği nağdsız ödənişlər üçün 15%-dən 17,5%-ə artırılıb, nağd ödənişlər üzrə isə 10%-dən 5%-ə endirilib. Vergi Məcəlləsində KOS subyektləri üçün müəyyən güzəştlər və sadələşdirilmiş prosedurlar nəzərdə tutulsa da, praktiki təhlillər göstərir ki, bu sahədə bəzi problemlər qalmaqdadır. Əvvəla, vergi yükünün sektoral fərqləri nəzərə alınmadan tətbiq olunması bəzi KOS subyektləri üçün qeyri-bərabər rəqabət şəraiti yaradır. İkincisi, vergi hesabatlılığının texniki və hüquqi mürəkkəbliyi xüsusilə mikro sahibkarlar üçün əlavə xərclər və risklər yaradır. Bu isə onların qeyri-rəsmi fəaliyyətə meyil etməsinə səbəb olur ki, bu da vergi bazasının daralmasına və dövlət büdcəsinə daxilolmaların azalmasına gətirib çıxarır. Mövcud vəziyyətin yaxşılaşdırılması üçün Vergi Məcəlləsinin bir sıra istiqamətlərdə təkmilləşdirilməsi məqsədəuyğun hesab olunur.

KOS-un rəqabət qabiliyyətini gücləndirmək məqsədilə Vergi Məcəlləsində bir qrup istiqamətlərdə təkmilləşdirmələrin aparılmasını məqsədəuyğun hesab edirəm:

1. Sadələşdirilmiş vergi rejimlərinin genişləndirilməsi. Sadələşdirilmiş vergi sistemindən istifadə edən sahibkarların dairəsinin genişləndirilməsi, dövriyyə limitlərinin qaldırılması və sektorlar üzrə fərqləndirilmiş yanaşmaların tətbiqi məqsədəuyğundur. Bu, xüsusilə regionlarda fəaliyyət göstərən mikro və kiçik sahibkarların vergi yükünü azaldaraq, onların bazarda daha fəal iştirakını təmin edə bilər.

2. Diferensial vergi dərəcələrinin tətbiqi. Vergi Məcəlləsində diferensial yanaşmaların tətbiqi, yəni, sahibkarlıq subyektlərinin

---

[15]Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikasının Qanunu. – Bakı, 11 iyul 2000: [Elektron resurs] / URL: https://e-qanun.az/framework/119//.

ölçüsünə, fəaliyyət sahəsinə və coğrafi yerləşməsinə görə vergi dərəcələrinin müəyyənləşdirilməsi rəqabət mühitində balansın yaradılmasına şərait yarada bilər.

3. Vergi tətilləri və kreditlərinin təqdim olunmasının genişləndirilməsi. Yeni fəaliyyətə başlayan KOS subyektlərinə 1-3 il müddətində vergi tətillərinin verilməsi, innovativ və yüksək texnologiyalı sahələrdə fəaliyyət göstərən sahibkarlara vergi kreditlərinin təqdim olunması onların inkişaf tempini artıra bilər.

4. Vergi inzibatçılığının sadələşdirilməsi. Vergi inzibatçılığı proseslərinin şəffaf və əlçatan olması, istifadəsinin təşviqi ilə təmin olunur.

5. Elektron vergi xidmətlərinin sadələşdirilməsi. Vergi orqanları tərəfindən təqdim edilən elektron xidmətlərin təkmilləşdirilməsi və KOS-lar üçün xüsusi inteqrasiya edilmiş platformaların yaradılması onların inzibati yükünü azaldar və vergi öhdəliklərinin yerinə yetirilməsini asanlaşdırar.

6. Hüquqi və institusional islahatların aparılmasının davamlılığının təmin edilməsi. Vergi Məcəlləsində aparılan dəyişikliklər yalnız texniki deyil, habelə normativ-hüquqi və institusional dəyişiklikləri də əhatə etməlidir. Vergi siyasəti ilə sahibkarlığın inkişaf strategiyası arasında sinxronlaşdırılmış əlaqə qurulmalıdır. İqtisadiyyat Nazirliyi, Dövlət Vergi Xidməti və Sahibkarlığın İnkişafı Fondu arasında koordinasiya gücləndirilməlidir.

7. Beynəlxalq təcrübəyə davamlı diqqət yetirilməsi və ən uğurlu nümunələrinin tətbiqi.

Bu istiqamətdə reallaşdırılan tədbirlər KOS-un kapitala çıxış imkanlarını artırmaqla yanaşı, onların beynəlxalq bazarda da dayanıqlı iştirakını təmin edə bilər.

Səmərəli vergi sistemi, sahibkarları innovativ fəaliyyətə təşviq etməklə yanaşı, risklərin azaldılmasına, startapların bazara daxil olmasını asanlaşdırmağa və sərmayələrin cəlb edilməsinə xidmət etməlidir. Bu məqsədlə vergi güzəştlərinin tətbiqi, investisiya layihələri üçün vergi tətilləri, elmi-tədqiqat fəaliyyətlərinin dəstəklənməsi və texnologiya transferini təşviq edən tədbirlər konsepsiyanın əsas komponentlərini təşkil edir. Fəaliyyət Konsepsiyasının əsas hədəfi vergi siyasətinin innovasiyaya açıq,

çevik və sahibkarları təşviq edən mühitə transformasiya edilməsidir Fəaliyyət Konsepsiyası çərçivəsində tədbirlərin əsas hədəflərindən biri də innovativ sahibkarlığın qarşılaşdığı fiskal maneələri minimuma endirməkdir.

İnnovativ sahibkarlığın inkişaf etdirilməsində vergilərin səmərəliliyinin yüksəldilməsi və KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması baxımından vergi sisteminin təkmilləşdirilməsi üzrə Fəaliyyət Konsepsiyasının əsas tərkib elementlərinin blok-sxemini şəkil 6-dakı kimi təklif edirik.

Konsepsiya vergi sisteminin diferensiallaşdırılmasına da əsaslanır və bu yanaşma, fərqli innovasiya səviyyəsində olan sahibkarlıq subyektlərinə uyğun vergi rejimlərinin tətbiq olunmasını nəzərdə tutur. Məsələn, texnologiya startapları, ekoloji təmiz məhsul istehsalçıları və yüksək texnoloji avadanlıq sahəsində fəaliyyət göstərən müəssisələr üçün xüsusi vergi təşviqləri hazırlanaraq tətbiq edilə bilər. Bu, innovasiya fəaliyyətinə əlavə dəyər verən sahibkarların üstünlüyünü stimullaşdırır və ümumi iqtisadi mühitin modernləşdirilməsinə xidmət edir.

**Fəaliyyət Konsepsiyası əsas tərkib elementləri**

1. **Vergi yükünün optimallaşdırılması**: vergi yükünün balanslaşdırılması; vergi yükünün azaldılması.

2. **Vergi sisteminin daha inklüziv və diferensial yanaşma əsasında qurulması**: KOS seqmentlərinə uyğun vergi yanaşması; müxtəlif ölçülü və fəaliyyət istiqamətli sahibkarlıq subyektləri üçün bərabər imkanların yaradılması.

3. **Vergi inzibatçılığının sadələşdirilməsi və rəqəmsallaşdırılması**: sadələşdirilmiş və rəqəmsallaşdırılmış vergi idarəçiliyi sisteminin tətbiqi; elektron-kassa aparatlarının tətbiqi; elektron bəyannamənin tətbiqi; proseslərin avtomatlaşdırılması.

4. **Vergi güzəştləri və təşviq mexanizmlərinin genişləndirilməsi:** vergi güzəştlərinin tətbiqinin sadələşdirilməsi; subsidiyaların, güzəştli kreditlərin, dövlət zəmanətli investisiyaların istifadəsi, innovativ KOS subyektlərinin innovasiya layihələrinin reallaşdırılmasına tələb olunan kredit resurslarının müddətlərinin 20 ilədək baxılması və faizlərin subsidiyalaşdırılması mexanizmlərinin tətbiqi

5. **Vergi siyasətinin proqnozlaşdırıla bilməsi və stabilliyinin təmin edilməsi:** sabit vergi qanunvericiliyi; uzunmüddətli vergi planlaşdırılması.

6. **KOS-ların vergi intizamını təşviq etmək üçün motivasiyaedici alətlərdən istifadənin gücləndirilməsi:** mükafat və təşviq sistemlərinin tətbiqi; rəqəmsal monitorinq kampaniyalarının təşkili.

7. **Vergi savadlılığı sahəsində sistemli və məqsədyönlü işlərin gücləndirilməsi:** təlim və maarifləndirmə; vergi savadlılığının artırılması üzrə seminarların təskili.

8. **İnnovativ sahibkarlığın və KOS-ın rəqabət qabiliyyətinin artırılması baxımından vergi sisteminin təkmilləşdirilməsi üzrə Beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi:** beynəlxalq təcrübələrin təhlili və ən uğurlu modellərin tətbiqi.

**Şəkil 6. İnnovativ sahibkarlığın inkişaf etdirilməsində vergilərin səmərəliliyinin yüksəldilməsi və KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması baxımından vergi sisteminin təkmilləşdirilməsi üzrə Fəaliyyət Konsepsiyasının əsas tərkib elementlərinin blok-sxemi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

**Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik aşağıdakı nəticələr əldə edilmiş və təkliflər verilmişdir:**

1. Vergi sistemi bu çərçivələrin mərkəzində dayanaraq sahibkarlığın formalaşmasında, inkişafında və rəqabət üstünlüklərinin əldə olunmasında aparıcı rol oynayır. İnstitusional nəzəriyyələr bu münasibətlərin izahında geniş analitik imkanlar yaradır və iqtisadi siyasətin formalaşmasında nəzərə alınmalı fundamental yanaşmaları təqdim edir.

2. Sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi və bu proseslərdə vergi sisteminin rolunun artırılması ilə bağlı yanaşmaların əsasında dayanan başlıca prinsip iqtisadi transformasiya şəraitində KOS-un dəstəklənməsi və davamlı inkişafının təmin olunmasıdır. Vergi siyasəti bu məqsədə xidmət etməli və sahibkarların fəaliyyətini məhdudlaşdırmamalı, əksinə, onları rəqabətqabiliyyətli və innovativ olmağa təşviq etməlidir.

3. Hesab edirik ki, Vergi Məcəlləsinin KOS-un inkişafına dəstək verən istiqamətdə təkmilləşdirilməsi zəruridir ki, bu da təkcə vergi yığımlarının artırılması deyil, habelə sahibkarlıq mühitinin sağlamlaşdırılması, qeyri-rəsmi iqtisadiyyatın azaldılması və iqtisadi aktivliyin genişləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu səbəbdən vergi siyasətində institusional və hüquqi islahatlar bir-birini tamamlamalı, uzunmüddətli və sistemli yanaşma əsasında reallaşdırılmalıdır.

4. Rəqabət mühitində möhkəmlənmək üçün KOS-ların texnologiya və bilik bazasına çıxışı, rəqəmsal savadlılığın artırılması və marketinq resurslarının gücləndirilməsi vacib amillərdəndir. Bu baxımdan dövlətin yaratdığı vergi və qeyri-vergi təşviqləri biznes subyektlərinin innovasiya potensialını ortaya çıxarmağa imkan verir.

5. Vergi güzəştlərinin şəffaf və məqsədyönlü şəkildə tətbiqi, bu siyasətin daha effektiv nəticələr verməsini təmin edir. Ölkədə sahibkarlığın daha geniş miqyasda motivasiyalaşdırılması və rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin təmin olunması üçün vergi sisteminin dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi reallaşdırılmalıdır.

6. Uzunmüddətli dövrü əhatə edən investisiya-innovasiya layihələrinin icra edilməsində sahibkarlıq subyektlərinin daha səmərəli maliyyə mexanizmlərinə malik olmaları kontekstində vergi mexanizmləri hazırlanmalı və vergi dərəcələri müəyyənləşdirilməlidir.

7. Azərbaycanda innovativ sahibkarlığın əsas problemlərindən biri innovasiya məhsullarını istehsal etmək üçün özlərinin vəsaitlərinin çatışmamasıdır və hesab edirik ki, bu amil nəzərə alınmaqla xüsusi vergi mexanizmləri tətbiq olunmalıdır və bunun üçün ən azı 15-20 illik dövr götürülməlidir.

**Disertasiya işinin mövzusu üzrə aşağıdakı elmi məqalələr və tezislər dərc edilmişdir:**

1. Azərbaycanda rəqabət qabiliyyətli sahibkarlığın inkişafında vergi sisteminin səmərəliliyinin artırılması istiqamətləri // – Bakı: Qərbi Kaspi Universiteti, Elmi Xəbərlər (İctimai və Texniki elmlər seriyası), 2025, № 01. – s. 514-519.
2. Kiçik və orta sahibkarlıq fəaliyyətində vergilərin səmərəliliyinin yüksəldilməsinin metodoloji aspektləri // – Bakı: “Audit” elmi-praktiki jurnal, 2025, № 01. – s. 44-54.
3. Qlobal kontekstdə rəqabət qabiliyyətli sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi problemlərinə nəzəri yanaşmalar // – Bakı: Qərbi Kaspi Universiteti, Elmi Xəbərlər (İctimai və Texniki elmlər seriyası), 2025, № 02. – s. 93-100.
4. Оценка влияния налоговой системы на повышение конкурентоспособности предпринимательской деятельности // – Москва: Журнал “Monetary economics and management”, 2025, № 07. – стр. 401-409.
5. Современные аспекты налогообложения малого и среднего бизнеса // – Москва: “Финансовая экономика” научно-аналитический журнал, 2025, № 08. – стр. 128-132.
6. Azərbaycanda kiçik və orta sahibkarlığın rəqabət qabiliyyətinin gücləndirilməsində vergilərin rolunun təkmilləşdirilməsi // – Bakı: Suverenliyin möhkəmləndirilməsində rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafına yeni strateji yanaşmalar.

Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı Biznes Universiteti, 25 aprel, 2025. – s. 563-566

7. Sahibkarlığın rəqabət qabiliyyətinin gücləndirilməsində vergı mexanizminin aktual problemləri // – Baku: Dedicated to the 102nd Anniversary of the National leader of Azerbaijan Heydar Aliyev of IX ınternatıonal scıentıfic conference of young researchers. Baku Engineering University, Academy of the State Customs Committee of the Republic of Azerbaijan. Proceedings – BOOK, 23-24, May 2025. – pp. 767-771

8. Современное состояние малого и среднего предпринимательства в Азербайджане // – Москва: XX Международной научно-практической конференции «Устойчивое развитие общества: Новые научные подходы и исследования» (шифр – МУРО), 08.07.2025. – стр. 190-201.

9. Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərində vergilərin səmərəlilik problemləri // – Bakı: Azərbaycan Kooperasiya Universitetinin 60 – illiyinə həsr olunmuş “Yeni reallıqlar şəraitində Azərbaycanın iqtisadi və sosial inkişafı: problemlər, çağırışlar, perspektivlər” adlı beynəlxalq elmi-praktiki konfrans, 06 dekabr 2025. – s. 198-202.



Dissertasiyanın müdafiəsi 17 iyun 2026-cı il tarixdə, saat $14^{00}$-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nərimanov rayonu, Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.05.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 42679 işarə

Tiraj: 100